

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 yanvar 2024-cü il №5 (2816) https://mod.gov.az Qiymәti 30 qәpik


*Təlim*

## Hazırlığı yüksək olan əsgər qalib döyüşçüdür



*İkinci Dünya müharibəsində tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun yazdığı qəhrəmanlıq salnaməsi, Birinci Qarabağ müharibəsində Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovla davam etdi və nəhayət, İkinci Qarabağ müharibəsinin “dəmir atlı” cəngavəri tank komandiri, Vətən Müharibəsi Qəhrəmanı Amid Heydərov və sadalananların timsalında yüzlərlə igid tankçılarımızın yazdığı Zəfər salnaməsinə çevrildi. Məlumdur ki, həm sovet dönəmində, həm də müstəqilliyimizi bərpa etdiyimiz gündən bu günə qədər qəhrəman tankçılarımız olub və bu ənənə günümüzdə də davam edir.*

Torpaq həsrətinə son qoyan igid hərbçilərimiz qazanılan şanlı qələbədən sonra da öz döyüş vərdişlərini müasir tələblər çərçivəsində artırmaqda davam edirlər. Belə ki, istər ölkə hüdudları daxilində keçirilən müxtəlif miqyaslı təlimlər, təşkil olunan müxtəlif beynəlxalq turnirlərdə özünü yaxşı tərəfdən göstərməyi bacaran “dəmir atlı” cəngavərlərimiz üzərinə düşən tapşırıqları yüksək səviyyədə icra etməyi bacarıblar. Necə ki, tarixən tankçılarımız onlara olan etimadı ləyaqətlə və layiqincə doğrultmağı bacarıblar.

"N" hərbi hissəsinin tankçılarının iştirakı ilə keçirilən təlim məşqdəyik. Əvvəlcə tankçılara qarşıda duran tapşırıqlar izah olunur, təhlükəsizlik qaydaları çatdırılır və məqsədlər izah olunur. Təlimin şərtinə əsasən, tankçılar süni və təbii maneələri dəf etdikdən sonra atış nöqtəsində yerini tutmalı və tapşırıqları nəzərdə tutulan normativə uyğun icra etməli idilər. Öz tanklarına minən hərbçilər "dəmir pələng"in vahiməli səsi ilə hərəkətə başladılar. Tankçıların fəaliyyətini izlədik, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəldiklərinin şahidi olduq. Tapşırıqların yüksək səviyyədə icrası bölmədəki yüksək döyüş hazırlığının göstəricisi idi ki, bunun da qazanılmasına xeyli əməyin sərf olunması danılmazdır. Məşq başa çatdıqdan sonra “dəmir atlı” cəngavərlərimizi yaxından tanıyıb, onların fikirlərini qələmə aldıq.

İlk müsahibim gizir Şöhrət Aslanov oldu. Məlumat üçün qeyd edim ki, Şöhrət uzun illər ordu sıralarında xidmət edən təcrübəli hərbi qulluqçularımızdan biri kimi həm Aprel döyüşlərinin, İkinci Qarabağ müharibəsinin, həm də 2023-cü il əməliyyat tədbirlərinin iştirakçısı olub. "Hər bir hərbi ixtisas sahibi kimi tankçı olmaq da öz xüsusiyyətləri ilə seçilir. Tankı hər bir tankçının "dəmir evi" kimi anlasaq görərik ki, tankçı olmaq güclü hərbi ailə və dostluq mühitini özündə ehtiva edir. Tank heyəti kiçik döyüş heyəti olsa da, üzərinə çox böyük vəzifələr düşür. Bunun üçün də ixtisasının praktiki və nəzəri incəliklərini dərindən mənimsəməyi bacaran heyət üzvümüzün hər nəfəri üzərinə düşən tapşırığın öhdəsindən layiqincə gəlməyə çalışır ki, zəncirvarilik prinsipi pozulmasın, döyüş tapşırığının icrasında maneə yaranmasın. Hər kəs öz vəzifəsini yaxşı bilir və onun incəliklərinə bələddir. Təlim və məşqlərdə qazandığımız bilik və bacarıqları düşmən üzərində uğurla sınaqdan keçirdik. Havasından, zamanından, ərazinin relyefindən asılı olmayaraq keçdiyimiz hazırlıq və məşqlər, şükürlər olsun ki, yerdə qalmadı. Bu gün işğal başa çatıb və bizə bu qələbəni canı ilə bəxş edən şəhid tankçılarımıza Allahdan rəhmət, ailələrinə isə səbir diləyirəm. Onların hər biri elə bir ucalıqdadır ki, o ucalıq hər adama qismət olmur. Seçdiyimiz peşə mərdlərin və cəsurların peşəsidir. Cəsarət və igidlik salnaməmiz olan 44 günlük haqq savaşımızın iştirakçısı olmağın verdiyi fəxarət və qüruru ifadə etməkdə sözlər kifayət etmir. O qələbənin əldə olunmasında az da olsa payım varsa, nə xoş mənə”, - deyə gizir Şöhrət Aslanov bildirdi.

**(Ardı 3-cü səhifədə)**

## Mühəndis təminatı üzrə tədbirlərin icrası davam etdirilir



*Azərbaycan Ordusunun çətin relyefli, sərt iqlim və dağlıq ərazilərdə dislokasiya olunan bölmələrində xidməti-döyüş fəaliyyəti yüksək səviyyədə təşkil olunub.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mühəndis bölmələri tərəfindən təminat yollarının, rabitə və kommunikasiya xətlərinin daim işlək vəziyyətdə saxlanması üçün zəruri tədbirlər həyata keçirilir.



Şəxsi heyətin və avtomobil kolonlarının təhlükəsizliyi üçün hərəkət məhdudlaşdırılıb, təminat yollarının qardan təmizlənməsi növbəli şəkildə icra olunur.

Qeyd edək ki, mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun olaraq, digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə davam etdirilir.

# Azərbaycanın müdafiə naziri Türkiyənin Milli Müdafiə Universitetinin rektoru ilə görüşüb





*Yanvarın 22-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları salamlayan general-polkovnik Zakir Həsənov ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirib. Müdafiə naziri qardaş ölkə Türkiyə ilə digər sahələrdə olduğu kimi, hərbi təhsil sahəsində də əməkdaşlığın yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib.



Nazir hərbi təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsinin hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına müsbət təsir etdiyini vurğulayıb.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən professor E.Afyoncu ölkəmizin suverenliyi və ərazi bütövlüyünün bərpası, eləcə də Azərbaycan Ordusunda əldə olunan nailiyyətlərlə əlaqədar müdafiə nazirini təbrik edib. Hərbi təhsil sahəsində həyata keçirilən islahatların bundan sonra da davam etdirilməsinin, eləcə də bu istiqamət üzrə qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib.

Görüşdə hər iki ölkənin hərb tarixinin, o cümlədən qəhrəmanlıq salnamələrinin araşdırılmasının vacibliyi xüsusi vurğulanıb, Azərbaycan ilə Türkiyə arasında maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonra E.Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay ilə görüşüb.

Keçirilən görüşlərdə Azərbaycan ilə Türkiyə arasında hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanların olduğu qeyd edilib.



# Milli Müdafiə Universitetində Türkiyə nümayəndə heyəti ilə görüş keçirilib

*Ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti yanvarın 23-də Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetini və onun nəzdində fəaliyyət göstərən hərbi təhsil müəssisələrini ziyarət edib.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqlara Müdafiə Nazirliyinin strukturuna daxil olan təhsil müəssisələrinin yaranma tarixi, təhsil sistemi və tədris prosesi, eləcə də elmi fəaliyyəti haqqında brifinq təqdim olunub.

Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetlərinin rəhbər heyəti arasında keçirilən görüşdə dövlətimizin başçısının hərbi təhsil sisteminin inkişafına göstərdiyi qayğıdan, Azərbaycan Ordusunda bu sahədə aparılan islahatlar, eləcə də Ordumuzun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışılıb.

Azərbaycan Respublikasının Prezidentinin müvafiq Fərmanı və Sərəncamı ilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında yaradılan xüsusi təyinatlı hərbi kolleclərin əhəmiyyəti, eləcə də hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin gənclərin hərbi xidmətə marağının əhəmiyyətli dərəcədə artmasına imkan verəcəyi qeyd olunub.

Görüşdə iki qardaş ölkənin hərbi təhsil sahəsində əməkdaşlığının daha da genişləndirilməsindən söhbət açılıb, bu istiqamətdə görüləcək işlər, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Təhsil müəssisələrini ziyarət edən professor E.Afyoncu xatirə kitablarına ürək sözlərini yazıb.

# Azərbaycan Ordusunun hərbi qulluqçularının səsvermədə iştirakı üçün zəruri tədbirlər görülür

*Azərbaycan Ordusunun şəxsi heyəti fevralın 7-də Müdafiə Nazirliyinin hərbi hissə və müəssisələrində yaradılan qapalı seçki məntəqələrində prezident seçkilərinin səsverməsində iştirak edə biləcəklər.*

AZƏRTAC xəbər verir ki, bu barədə "secki-2024.az" saytının sorğusuna cavab olaraq Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, seçkilərin Azərbaycan Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsi, eləcə də şəffaflığın təmin edilməsi üçün hərbi hissə və müəssisələrin ərazilərində fəaliyyət göstərəcək məntəqələrdə zəruri tədbirlər görülür. Eyni zamanda, Azərbaycan Ordusunda xidmət keçən bir qrup hərbi qulluqçu prezident seçkiləri ilə bağlı səsvermədə ilk dəfə iştirak edəcək. Müdafiə Nazirliyi ilk dəfə səs verəcək hərbi qulluqçuları nəzərə alaraq, Seçki Məcəlləsi ilə tanışlıq və digər maarifləndirici məlumatların çatdırılmasını da həyata keçirir.

"Ölkə üzrə bütün seçki məntəqələrində olduğu kimi, Azərbaycan Ordusunun şəxsi heyətinin də seçki prosesində hüquqlarının azad və sərbəst şəkildə təmin olunması üçün hərtərəfli şərait və əlverişli mühit yaradılacaq", - deyə məlumatda qeyd edilib.

Vurğulanıb ki, çətin relyefli dağlıq ərazilərdə döyüş növbətçiliyi aparan bölmələrdə olan seçicilərin səsvermədə iştirakının təmini üçün daşınan seçki qutularından istifadə ediləcək.

## İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun 114 illiyi qeyd olunub



Yanvarın 22-də Müdafiə Nazirliyinin təşkilatçılığı ilə adı Azərbaycanın hərb tarixinə qızıl hərflərlə həkk olunmuş, iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun anadan olmasının 114 illiyinə həsr olunmuş tədbir keçirilib.

Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusunun, Bakı Qarnizonundakı hərbi hissələrin, ictimaiyyət nümayəndələrinin, generalın ailə üzvlərinin iştirak etdiyi mərasimdə əvvəlcə fəxri qarovulun müşayiəti ilə məzarüstü abidə önünə Müdafiə Nazirliyi və Aslanovlar ailəsi adından əklillər qoyulub, güllər düzülüb. Ulu Öndər



Heydər Əliyevin və xalqımızın igid oğlunun timsalında Vətənimizin şəhid övladlarının xatirəsi ehtiramla yad edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə çıxış edən Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani iki dəfə Sovet İttifaqı Qəhrəmanının Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdən biri olduğunu qeyd edib. Polkovnik



A.Qurbani Həzi Aslanovun mənalı həyatı, qəhrəmanlığı və İkinci Dünya müharibəsindəki xidmətlərindən danışaraq vurğulayıb ki, onun döyüş yolunun öyrənilməsi gənclərimizin vətənpərvər ruhda tərbiyə olunmasında böyük əhəmiyyət daşıyır.

Birinci Qarabağ müharibəsi iştirakçısı, "Azərbaycan Bayrağı" ordenli polis general-mayoru Həzi Aslanov istər İkinci Dünya müharibəsi, istərsə də Qarabağ müharibəsi veteranlarına və şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan cənab İlham Əliyevə, mərasimin təşkilinə görə isə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

## Çağırışçıların hərbi hissələr üzrə bölgüsü keçirilib



Cari ilin hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin məsul vəzifəli şəxslərinin və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə Azərbaycan Ordusunda hərbi xidmətə yeni gələn çağırışçıların hərbi hissələr üzrə bölgüsü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, çağırışçıların hərbi hissələr üzrə bölgü prosesi elektron qaydada, xüsusi kompüter proqramı vasitəsilə tam şəffaf şəkildə icra olunub.

Şəxsi heyətin bölgüsü onların ailə tərkibi və fiziki hazırlığı, eləcə də əks-ərazi prinsipi nəzərə alınmaqla ixtisaslara uyğun yerinə yetirilib.



## Hazırlığı yüksək olan əsgər qalib döyüşçüdür

(Əvvəli 1-ci səhifədə)

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Saleh Süleymanov əslən Bərdə rayonundandır. Tuşlayıcı-operator vəzifəsində xidmət edən Saleh ordu quruculuğu sahəsində əldə olunan uğurların ardının bundan sonra da olacağına sonsuz inamını ifadə edərək söhbətə başladı: "Məlumdur ki, regionumuzun təhlükəsizliyi və xalqımızın firavanlığı üçün ordu quruculuğu sahəsinin müasir tələblər çərçivəsində qurulması vacib şərtdir. Ordumuzun şəxsi heyəti dünya hərb tarixində son illərdə yazılmamış və rast gəlinməmiş tayı-bərabəri olmayan böyük qələbəyə imza atmağı bacarıb. Bu qələbəni şərtləndirən əsas amillər Müzəffər Ali Baş Komandan və qədirbilən xalqımızdan aldığımız böyük güc və yüksək döyüş əhval-ruhiyyəsi idi. Texnika və yaxud silah son dərəcə müasir ola bilər, amma qələbə əzmin və döyüş ruhun lazımi səviyyədə deyilsə, qələbə



qazana bilməzsən. Təcrübəli komandirlərimizin rəhbərliyi altında tank heyətimiz təlim və məşqlərdə öz bilik və bacarığını artırıb, bundan sonra da artırmaqda davam edəcək. Belə ki, arsenalımıza daxil olan müasir silah və texnikalar, idarəetmə və müşahidə vasitələrinin köməkliyi ilə öz hərbi texnikamızın səmərəliliyinin artırılması fonunda ordu rəhbərliyi tərəfindən böyük işlər görülür. Mənfur qonşularımızla münaqişəmiz başa çatsa da, tarixi torpaqlarımız işğaldan azad olunsa da, bu gün müasir dövrün döyüşaparma üsul və vasitələrini öyrənir, öyrəndiklərimizi də təcrübədə uğurla tətbiq edirik. Hərb sahəsi düşündüyümüzdən də tez yenilənən bir sahədir. Bunun üçün də təcrübəli komandirlərimiz müasir dövrün standartları nəzərə alınmaqla döyüşaparma və özünümüdafiə üsullarını bizə tədris edirlər. Biz də öz növbəmizdə mənimsənilən bilik və bacarıqları sınaqdan keçirir, üzərimizə düşən tapşırıqları dövrün tələbləri çərçivəsində yerinə yetiririk".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İbrahim Xəlilov tankın istifadəsi və tapşırıqların icrası ilə yanaşı, onun texniki qulluq işinin də vacibliyini xüsusi qeyd etdi. "Bir döyüşçü olaraq hərbi qulluqçu ona təhkim olunmuş silah, texnika və digər döyüş vasitələrini daim döyüşə hazır vəziyyətdə saxlamağa borcludur. Tankın də lüləsindən tutmuş tırtılına, mühərrikindən tutmuş nəzarət və işıqlandırma cihazlarına qədər varlığı və sazlığını daim nəzarətdə saxlamalısan. Yaranmış problemin həlli üçün geniş bilik və bacarığa malik olmalısan. Bunun üçün də tank heyəti ona təhkim olunmuş hərbi texnikanın texniki vəziyyətini daim nəzarətdə saxlamalı, onu hər an çıxışa hazır etməlidir. Unutmamalıyıq ki, hazırlığı yüksək olan əsgər savaşda qalib döyüşçüdür".

Tankçılarımızdan xoş təəssüratlarla ayrılırıq. Və mütləq qeyd etmək yerinə düşər ki, tarixi ənənələrə sadiq qalan məmləkətimizdə qəhrəman tankçılarımız da olub, var və bundan sonra da olacaq. Buna cəsur tankçılarımızla tanış olduqdan sonra bir daha əmin olduq. Sonda məlumat üçün qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə gizir Şöhrət Aslanov "Cəsur döyüşçü", "Ağdamın azad olunmasına görə" medalları ilə, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Saleh Süleymanov "Ağdamın azad olunmasına görə" medalı, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İbrahim Xəlilov "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif olunublar.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# "Ordu quruculuğunda son islahatlar çox uğurlar gətirəcək"

Bu və ya digər sənətə maraq, həvəs, sevgi bəzən yeniyetməlikdən yaranır, aylar-illər keçdikcə arzuya çevrilir. Bəs maraq necə yaranır? - yeniyetmənin duyumunun, düşüncələrinin, yaşına uyğun dünyagörüşünün, mütaliəsinin də təsiri olur. Yeniyetmə hansı qəhrəmanınsa, hansı qəhrəmanlığınsa işığını duyur, onu düşüncələrinə, düşüncələrindən ömür yoluna köçürür. Maraq onda arzuya çevrilir.

Fuad Rəhimov da gördüklərinin, oxuduqlarının, eşitdiklərinin mahiyyətini dərk etməyə çalışırdı. Müharibə, müharibənin ağrıları təkcə yaşlıların, gənclərin deyil, yeniyetmələrin də düşüncələrini titrədirdi. Onda Fuad dünyanın işləklərinin müşahidəçisi olmaq istəməmişdi. Həmin işləklərə sinə gərənlərin sırasında olmağa qərar vermişdi: Hərbçi olacam! Niyyətini müəllimləri də bəyənmişdi, valideynləri də. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil aldı. Hərbi bilikləri də mənimsədi, xarakteri də mətinləşdi. Komandirinin dediklərini indi də unutmayıb: Yaxşı vətəndaş olmayan yaxşı zabit ola bilməz! Fuad yaxşı vətəndaş kimi yaxşı zabit olmaq istəyirdi. Bu amalla xidmət edirdi - müxtəlif hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət etdi. Əsgərlərinin düşüncələrindən qürurlanaraq xidmət etdi, kursant olanda komandirlərinin verdiyi tövsiyələri unutmadan xidmət etdi. "Torpaqlarımızın işğaldan azad edilməsi üçün başlayacaq döyüşlərin iştirakçısı olmaq istəyirik!" - Əsgərlərinin dediyi bu fikirlər onu həm duyğulandırırdı, həm də işğaldan qurtuluş gününün uzaqda olmadığının inamına dönürdü. Bu gözəl niyyəti Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu bilmişdi...




Ermənistan ordusunun hissələri Talış kəndini işğal etmişdi. 1992-ci il iyunun 14-də Goranboy batalyonu Tapqaraqoyunlu istiqamətindən hücum edərək Talış kəndini işğaldan azad etmişdi. 1994-cü ilin aprel ayında hücum edən erməni qüvvələri kəndi yenidən nəzarət altına almışdı.

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikası Prezidentinin döyüş əmri ilə əks-hücum əməliyyatı başladı. Mayor Fuad Rəhimovun xidmət etdiyi hərbi hissə Talış kəndi istiqamətində döyüşürdü. Müharibənin ilk günü düşmənin əhəmiyyətli mövqelərinin dağıdılmasında onlar da qətiyyətlə döyüşmüşdülər. İlk döyüşlər əsgərlərin qələbə ruhunu yüksəltmişdi. 2016-cı ilin Aprelində bu kənd uğrunda da döyüşlər getmişdi, düşmən bu kənddən də sıxışdırılmışdı. 2020-ci il oktyabrın 3-də kənd işğaldan tamamilə azad edildi. Bu qələbədə mayor Fuad Rəhimovun xidmət etdiyi hərbi hissə də fərqləndi...

Mövqe qələbələri qazanıldıqca, mövqe qələbələrinin davamı kimi kəndlər, qəsəbələr işğaldan azad edildikcə, döyüşçülər əmin olurdular ki, Böyük Qələbə ərəfəsindədirlər. Hər döyüşü son döyüş bilib döyüşürdülər. Suqovuşan istiqamətinə, Suqovuşana bu ruhla yaxınlaşmışdılar...

Suqovuşan uğrunda gedən döyüşlərdə də döyüş şəraitini Azərbaycan Ordusunun üstünlüyünə yönəldən gərəkli döyüşləriylə bu hərbi hissə də fərqləndi. Suqovuşan işğaldan azad edildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Suqovuşanda çıxışında dedi: "...mən buradayam, Suqovuşandayam, mən Şuşadayam, mən Hadrutdayam, mən Xocavənddəyəm, hər yerdəyəm...". Bu kəlamların ifadə etdiyi mətləb Azərbaycan Orduasuna ehtiramın ifadəsidir. Bu ehtiram mayor Fuad Rəhimovun xidmət etdiyi hərbi hissəyə də şamil edilir...

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Turqut Zeynalov minalanmış sahədə şəhid olmuşdu. Düşmən döyüşçülərimizin ona yaxınlaşmasına imkan vermirdi. Fuad onu döyüşün içindən çıxartmaqda israrlı idi. Necə? - düşünmüşdü. Və ora minalı sahədən deyil, tankın izi ilə yaxınlaşmağı qərara aldı. Üç əsgərlə atış altında çətinliklə də olsa Turquta çatdılar, nəfəs dərmədən gəldikləri kimi də geri qayıtdılar. Ondan sonra qəhərləndilər, əsgər itkisinə qəhərləndilər. Bu qəhər bir şəhidin timsalında bütün şəhidlərimizə görə yaşanılan qəhər idi...

İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazanıldı, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etdi. 2023-cü ilin sentyabr döyüşləri ilə Azərbaycanın ərazi bütövlüyü tam təmin edildi...

Mayor Fuad Rəhimov döyüşlərdə iştirakına görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə təltif olundu...

Mayor Fuad Rəhimov da ordu quruculuğunda həyata keçirilən son islahatların uğurlar gətirdiyindən qürurlanır, hələ çox uğurlar gətirəcəyinə də inanır...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Gerçəkləşən arzu

Vilayət hələ orta məktəbdə oxuyarkən gələcəkdə hərbçi olacağını, Vətəni canı və qanı bahasına qoruyacağını qarşısına məqsəd qoymuşdu. Onun bu istəyini bilən doğmaları, dostları Vilayətin arzusunu yüksək dəyərləndirir, ona uğurlar diləyirdilər.

Hərbçi peşəsi hər zaman şərəfli, müqəddəs sayılıb. Ona görə ki, o peşənin sahibləri ana Vətənimizin gecə-gündüz keşiyindədirlər. Tarixən də belə olub, bu gün də belədir, sabah da belə olacaq. 30 ilə yaxın erməni qəsbkarlarının işğalında qalan tarixi, əzəli torpaqlarımız Azərbaycan Ordusunun qəhrəman, cəsur zabit və əsgərləri sayəsində azad olundu. Vətənimizin ərazi bütövlüyünü canı, qanı bahasına qoruyacağına and içən hərbçilərimiz düşməni məğlub edərək, uzunillik işğala son qoydular. Xalqımıza Böyük Qələbə sevincini onun mərd, qorxmaz oğulları yaşatdı. Vətənimizin müdafiəsində əzmlə dayanan zabit və əsgərlərimizin fədakarlığı unudulmazdır. Onların vətənpərvərliyi gələcək nəsillərə nümunədir.

Vilayət də digər kursant yoldaşları ilə birlikdə Vətən müharibəsində döyüşənlərin sırasında olmağı çox arzulayırdı. Lakin o, bu arzusunu həyata keçirə bilmədi. Çünki Vilayət onda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbdə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) 2-ci kursda oxuyurdu. 27 sentyabr 2020-ci il - İkinci Qarabağ müharibəsinin başlandığı tarixi günü gənc zabit belə xatırlayır.



- Əks-hücum əməliyyatı başladığı gün hər birimizin tək arzusu vardı: Torpaqlarımız işğaldan azad olunsun. Belə də oldu. Qəhrəman hərbçilərimiz üçrəngli bayrağımızı Qarabağda ucaltdılar. Şəhid xəbərləri hər kəsi sarsıtsa da, kədərə boğsa da, torpaqlarımızın azadlığa qovuşması, Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi və rəşadətli ordumuzun Böyük Zəfər qazanması ruh yüksəkliyimizi daha da artırırdı, - gənc zabit deyir.

Leytenant Vilayət Şahbazəliyev istehkamçıdır. Məsuliyyətli, öz işində çalışqanlığı ilə seçilən zabit ötən il 19-20 sentyabrda ordumuzun həyata keçirdiyi uğurlu əməliyyat tədbirlərində fəal iştirak edib. Xankəndi, Şuşakənd istiqamətində keçidlərin açılmasında - partlamamış döyüş sursatlarının, tank əleyhinə, piyada əleyhinə minaların aşkarlanıb zərərsizləşdirilməsində xüsusi bacarıq nümayiş etdirib. Qəlbindəki arzularının reallaşdığı gün artıq gəlmişdi... Həmin gün o, zabit olaraq komandirlərindən ciddi tapşırıqlar alır. Azərbaycanımızın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması üçün əzmlə çalışır. Ordumuzun həyata keçirdiyi uğurlu əməliyyat tədbirləri separatçı qüvvələrin və qeyri-qanuni erməni silahlı dəstələrinin qısa vaxt ərzində məhv edilməsi ilə nəticələnmişdi. Bu, Vilayətin gerçəkləşən arzusu idi. Sevinirdi və qürurlanırdı ki, Vətən torpaqlarının düşməndən azad olunmasında onun da əməyi var; verilən tapşırıqları əminliklə, yüksək səviyyədə yerinə yetirib. Bu gün də leytenant Vilayət Şahbazəliyev istehkamçı olaraq azad edilmiş ərazilərimizdə xidmətini davam etdirir.

**Lalə HÜSEYNOVA,**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# "Ərazinin və iqlimin çətinliyi bizim müqəddəs amala çatmağımıza mane ola bilməzdi və ola bilmədi də"

"N" hərbi hissəsinə ezam olunmağımız həftənin park təsərrüfat gününə təsadüf edirdi. Avtomobil parkında şəxsi heyət avtomobil və digər texnikaları silib təmizləyir, onlara kompleks qulluq göstərirdi. Burada komandirlərin hörmətini qazanmış və təcrübəsi ilə seçilən sürücü, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş İzmir Qasımov ilə tanış olduq. İzmir avtomobilinin çıxışa hazır olması üçün son işlərini görürdü.

Təcrübəli sürücü işlərini başa vurduqdan sonra bizimlə söhbətə başladı. "10 ildən çoxdur ki, ordu sıralarında xidmət edirəm. Sürücü olmaq üçün təcrübə, səbir, məsuliyyət anlayışı ön plana çıxır. Buna görə də sürücü ona təhkim olunmuş texnika və avtomobilin həm nəzəri, həm də praktiki məsələlərini dərindən mənimsəməli, yol hərəkəti qaydalarını bilməlidir. Üzərimə düşən məsuliyyət avtomobilimi saz vəziyyətdə, gözəl görünüşdə saxlamaq, verilən tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün operativ və dəqiq olmaqdır. Çıxış öncəsi avtomobilin son yoxlamalarını aparıram, çıxışdan qayıtdıqdan sonra hissələrin sazlığını bir daha yoxlayıram. Avtomobil hər zaman istifadəyə hazır olmalıdır. Hərbi təyinatlı avtomobil və texnikanın saz vəziyyətdə olması bölmənin döyüş hazırlığını şərtləndirən amildir. Uşaqlıqdan maşın sürməyə marağım olduğu üçün gənc yaşlarımdan avtomobilin və onun texniki vəziyyətinin incəliklərini öyrənməyə başlamışam. Qazandığım təcrübələr maşında yaranmış hər hansı nasazlığın nədən qaynaqlandığını aydınlaşdırmağımda mənə yardımçı olur. Təbii ki, hərbi texnika mülki nəqliyyat vasitələrindən müəyyən məqamlarda fərqlənir. Çünki üzərində daha çox məsuliyyət hiss edir və bunun üçün də idarə etdiyin nəqliyyat vasitəsinin hər xırdalıqlarını öyrənməyə can atırsan. Çünki texnikanın sazlığı verilən tapşırığın icrasında ən vacib amillərdəndir. Bunun üçün də bilmədiklərimi öyrənir, bildiklərimi həmkarlarımla bölüşürəm. Hər birimiz eyni amala xidmət edirik. Hazırda hərbi hissəmizdə park təsərrüfat gününə əsasən kompleks tədbirlər görülür. Burada bütün sürücü və texniki heyət avtomobil parkında hərbi təyinatlı avtomobil və digər texnikaya zəruri qulluq göstərir. Yaranmış nasazlıqları vaxtında aradan qaldırmağı bacarmaq da mühüm şərtlərdəndir".



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş İzmir Qasımovla söhbət əsnasında öyrəndim ki, uzun illərdir ordu sıralarında xidmət edən müsahibim 2016-cı il Aprel döyüşlərinin, 44 günlük Vətən müharibəsinin və əməliyyat tədbirlərinin də iştirakçısı olub. "Sürücü olmaq özünlə bərabər yanındakıları və xidmət yoldaşlarını da düşünməyi səndən tələb edir. Aprel döyüşlərində Seysulan istiqamətində, Vətən müharibəsində Çaylı və Suqovuşan istiqamətlərində, əməliyyat tədbirlərində Ağdam istiqamətində təminat tapşırıqlarının icrasında iştirak etmişəm. Yüzlərlə igid qardaşımın təminat və təchizatını vaxtlı-vaxtında çatdırmaq üçün böyük səylə qarşıya qoyulan tapşırıqları yerinə yetirmişəm. Relyefin və iqlimin fərqliliyi müqəddəs amala çatmağımıza mane ola bilməzdi və olmadı da. Qarşıya qoyulan tapşırıqlar, Azərbaycan Ordusu tərəfindən uğurla icra olundu. Böyük Qələbə qazanıldı. Şəhidlərimizin qisası alındı. Qürurluyuq ki, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında hər birimiz yazılan və əsrlər boyu yaşayacaq Zəfər tarixinin bir parçasıyıq".

Qeyd edək ki, kiçik çavuş İzmir Qasımov 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**



## Atəş hazırlığı

# "Qürur hissi keçirirəm ki, vətəndaşlıq borcumu şərəflə yerinə yetirirəm"

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əsgərlərlə mütəmadi görüşləri şəxsi heyətin mənəvi-psixoloji hazırlığını daha da yüksəldir. Ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatlar ordumuzun maddi-texniki təchizatını artırmaqla yanaşı, həm də döyüş qabiliyyətini artırır.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət qələbəmizin təminatına çevrildi. Vətən müharibəsi xalqımızın tarixinə qızıl hərflərlə yazıldı. 19 sentyabr 2023-cü ildə keçirilən əməliyyat tədbirləri xalqımızın, ordumuzun güc və qüdrətini, polad iradəsini bütün dünyaya göstərdi. Nəticədə suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa olundu.

Tarixi qələbənin əldə edilməsində "N" hərbi hissəsinin şəxsi heyəti də yaxından iştirak etdi. Vətən müharibəsində döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirən şəxsi heyət əsl vətənpərvərlik nümunələri görsətdi. Füzuli, Xocavənd, Şuşa rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini, döyüş texnikasını, silah və sursatlarını məhv etdi. Döyüş əməliyyatlarında fəal iştirakına görə hərbi qulluqçular dövlətin yüksək mükafatlarına layiq görüldülər.

Mayor Ramin Həsənov bildirdi ki, müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına uyğun olaraq, dərslər, məşğələlər, taktiki təlimlər keçirilir. Müxtəlif silahlardan istifadə qaydaları mükəmməl öyrədilir. Şəxsi heyətin daha geniş maarifləndirilməsi üçün keçirilən ictimai-siyasi hazırlıq dərsləri vətənpərvərlik ruhunun daha yüksəldilməsinə xidmət edir.

Mayor Nicat Abdulhüseynov Vətən müharibəsinin və əməliyyat tədbirlərinin iştirakçısı olub. Komandirlik etdiyi bölmənin şəxsi heyəti düşmən qüvvələrinin darmadağın edilməsində yüksək döyüş bacarığı nümayiş etdirib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə müxtəlif medallarla təltif edilən zabit dedi:

- Biz dünyaya xalqımızın və ordumuzun yenilməzliyini, yüksək Vətən, torpaq sevərliyini, hərbçilərimizin peşəkarlığını, yüksək döyüş qabiliyyətini, polad iradəyə malik olmasını əyani surətdə göstərdik. Biz xidmətimizi məsuliyyətlə və dövlətə sədaqətlə davam etdiririk. Hər zaman Hərbi Anda sadiqik.

Hazırda bölmələrdə atış yoxlama məşqləri yerinə yetirilir. Şəxsi heyət döyüş təcrübəsinin artırılması üçün yüksək əzmkarlıq göstərir.

Minaatan bölmənin şəxsi heyətinin də uğurları çoxdur. Çöl şəraitində keçirilən çalışmalarda əsgərlər fəal iştirak edirlər. Gizir Rəşad Bayramov bölmə qarşısında qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirilməsində fəal iştirak edir.

Məşğələ keçirilən ərazidə bölmənin şəxsi heyəti növbəti atış çalışmasını icra edirdi. Əsgərlər avtomat silahından müxtəlif məsafələrə atəş açır, çalışmanı dəqiqliklə yerinə yetirirdilər. Əsgər Adamxan Hüseynov dedi:

- Vətənin keşiyində dayanmaq mənim də arzum olub. Fəxr edirəm ki, bu gün mən də qalib ordunun əsgəriyəm. Vətənimizin suverenliyinin tam bərpa edilməsində iştirak etmişəm. Qürur hissi keçirirəm ki, vətəndaşlıq borcumu şərəflə yerinə yetirirəm.

Əsgər İsmayıl Əliyev Cəlilabad rayonundandır. İsmayıl ona tapşırılan vəzifəni dəqiqliklə yerinə yetirdi. Atış çalışmasında da birincilər sırasındadır. O dedi:

- Hərbi Andı qəbul etdiyim gün həyatıma ən unudulmaz, əlamətdar gün kimi yazıldı. Peşəkar zabitlərimizdən hərb sənətinin sirlərini dərindən öyrənirik, bilik və təcrübəmizi artırırıq. Azərbaycan əsgəri kimi şərəfli adı daşımağımdan çox qürurluyam, mənə göstərilən etimadı həmişə doğruldacağam.

Əsgərlər Cavidan Əhmədov və Vüsal Quliyev də xidmət yoldaşlarının fikirləri ilə həmrəy olduqlarını bildirdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**



## Ordu və cəmiyyət

# Pedaqoji proses vətənpərvərlik işığına dönürsə...

*Vətənpərvərlik yüksək mənəvi keyfiyyətlərdəndir. Vətənpərvərlik vətəndaşlıq tərbiyəsinin əsasını təşkil edən ən ali hissdir. Vətənin bütövlüyünü, milli birliyimizi, qürurumuzu, düşüncələrimizi yaşatmaq üçün hər bir kəs vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirməyi bacarmalıdır. Bu borc ilk növbədə insanın yaşadığı torpaqla, Vətənlə bağlıdır - müqəddəsdir.*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev vətənpərvərliyi, vətəndaşlıq duyğusunu xalqın, Vətənə sevginin tərkib hissəsi hesab edirdi, hər bir azərbaycanlının vətənpərvərlik hissləri ilə yaşamalı olduğunu daim önə çəkir, bir fərd kimi formalaşmasına, milli və vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi önəm verirdi. Ulu Öndər nitqlərinin birində deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur". Bu gün əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, mahiyyət və keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Gənclər siyasətinin, gənclərə diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaş və sağlam nəslin formalaşması məqsədi dayanır. Dövlət başçısı gəncləri narahat edən problemlərlə hər zaman maraqlanır, bu istiqamətdə tövsiyə və tapşırıqlarını verir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Gənc nəslin vətənpərvər vətəndaş kimi formalaşmasında təhsil müəssisələrinin, müəllimlərin rolu böyükdür. Çünki onların vəzifəsi bilik vermək, elmin sirlərini aşılamaqla bərabər, Vətənə layiqli şəxsiyyətlər yetişdirməkdir. Bülbülə qəsəbəsindəki Nəriman Həmidov adına 208 nömrəli tam orta məktəbin direktor vəzifəsini icra edən Gülbacı Salmanlı ilə bu barədə söhbətləşdik.

Hər bir insan fərd kimi doğulub, şəxsiyyət kimi formalaşır. Bu proses məhz məktəbdə başlayır. Şagirdlərdə milli mənlik şüurunun, vətənpərvərlik hisslərinin tərbiyəsi, Vətən sevgisinin daha geniş miqyasda formalaşması hər bir müəllimi düşündürən vacib məsələlərdəndir. Müəllim əməyini çox



vaxt bağban əməyi ilə müqayisə edirlər. Bağban min bir zəhmətlə yetişdirdiyi ağacın bəhrəsini görəndə sevindiyi kimi, müəllim də öz yetirmələrinin uğurunu, xoş sorağını alanda ürəyi dağa dönür. 40 ildir təhsil sahəsində fəaliyyət göstərən Gülbacı müəllim də ad-san sahibi olan yetirmələrindən iftixarla danışdı: "Məktəblərdə həyata keçirilən tərbiyə işi hər bir müəllimdən pedaqoji ustalıq tələb edir. Çünki uşaqların həyata fərqli baxışları, nitqi məktəbdə təşkil olunan tərbiyəyə əsaslanır. Öyrətdiyimiz elm, bilik, savad, həyata doğru-düzgün baxış, xoş əməllər sayəsində gələcəyimizin etibarlı təminatı olan gənclərimiz formalaşır".

1981-ci ildə bitirdiyi məktəbə ömrünü bağlayan Gülbacı müəllim həm də dedi ki, məktəbimizin adını daşıdığı məzunu Birinci Qarabağ müharibəsi şəhidi Nəriman Həmidovun, Vətən müharibəsi şəhidi Mehdi Fərzullazadənin ailəsi ilə də əlaqələrimiz var. Hər sinfə şəhid adı verilib. Hər gün dərslərimiz Dövlət Himninin səslənməsi - ifası ilə başlayır. Qənimətlər Parkına, Azərbaycan Hərb Tarixi Muzeyinə ekskursiyalar təşkil olunur. Davamlı olaraq əlamətdar günlər və şəhidlərin anım tədbirləri gənc nəslin vətənpərvərlik tərbiyəsində böyük rol oynayır. Özünü Vətəninə, xalqına, millətinə borclu bilməyən adamlar mənasız bir həyat yaşayırlar. Məsləksiz, amalsız bir həyat əsl insan ömrü sayıla bilməz. Əsl insan, əsl vətəndaş elə yaşamalı, qəlbində Vətənə və insanlığa olan borcu elə yaşatmalıdır ki, onun həyatı əbədi məşəl kimi bəşər həyatının tərkib hissəsi olsun. Vətəndaşlıq borcunu dərindən dərk edənlər, bu borcu ürəklərində amal kimi yaşadanlar həmişə həyat mübarizəsindən şərəflə çıxırlar. Bu gün bir çox sahələrdə uğurlar əldə etmiş vətənpərvər gənclərimizin müəllimi olmağın qürurunu yaşayıram. Şagirdlərimizlə daim Mübariz, Polad, Samid, Nəriman, Çingiz, İlqar, Mehdi və digər igid, mərd, cəsur oğullarımızın Vətən, torpaq sevgisindən söhbətlər aparırıq. Biz müəllimlərin ən böyük xoşbəxtliyi təhsil verdiyimiz şagirdlərin Vətənə layiqli vətəndaş olmalarıdır.

Gənclərimizin Vətən sevgisini heç nə ilə müqayisə edilməz dərəcədə böyüklüyündən danışan müəllim Vətən müharibəsində qazanılan Qələbənin gənclər arasında çox böyük canlanma yaratdığından da söz açdı.

- Xalqımızın ədalətli müharibəsinin - Vətən müharibəsinin hər günü şanlı tarixdir. Bu gün İkinci Qarabağ müharibəsində tətbiq olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur. Azərbaycan Ordusunun Şuşanın azad olunması uğrunda döyüşlərdə sıldırım qayaları dırmaşaraq düşməni yüngül atıcı silahlarla məğlub etməsi dünyanın ən qabaqcıl dövlətləri tərəfindən araşdırılmaqla ətraflı şəkildə öyrənilməkdədir. Bütün bunlar Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə, rəşadətli Azərbaycan Ordusunun gücünün, özünəməxsus bacarıq və səriştəsinin təsdiqi olmaqla yanaşı, gənc nəslin vətənpərvərlik tərbiyəsində də böyük rol oynayır.

Hər birimizin taleyində müəllimlərin xüsusi yeri var. Gülbacı müəllimlə söhbətdən sonra bir daha əmin oldum ki, məhz belə müəllimlərin əməyinin nəticəsində cəmiyyət inkişaf edir, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar formalaşırlar. Bu, Azərbaycan pedaqogikasının uğurudur...

**Kapitan**
**Günay TAĞIYEVA,**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan dövlətçiliyinin yaranma tarixi və inkişaf mərhələləri

***Suallar:***
*1. Qədim Azərbaycanda dövlətçilik ənənələri.*
*2. Orta əsrlər Azərbaycan dövlətləri haqqında.*
*3. XX əsrin əvvəllərində Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi.*
*4. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.*

### Qədim Azərbaycanda dövlətçilik ənənələri

XX yüzilliyin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir. Tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azıx, Tağlar, Damcılı, Daşsalahlı, Qazma mağaralarında, habelə başqa abidələrdə aşkar olunan arxeoloji tapıntılar, o cümlədən 300-400 min il bundan əvvəl yaşamış qədim insanın - Azıx adamının (Azıxantrop) çənə sümüyü bu diyarın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edir.

Azərbaycanlılar həm də dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Tarixi Azərbaycan torpaqlarında ilkin dövlətçilik ənənələri hələ miladdan əvvəl III minillikdə təşəkkül tapmışdır. Eramızdan əvvəl III minilliyin birinci yarısında yaranmış Aratta, eramızdan əvvəl III minilliyin ikinci yarısında mövcud olmuş Lullubum və Kutium dövlətləri erkən Azərbaycan dövlətləridir. Eramızdan əvvəl IX əsrdə müasir Cənubi Azərbaycan ərazisində Manna dövləti meydana gəldi. Adı ilk dəfə IX əsr mənbələrində çəkilən Midiya da Azərbaycan ərazisində mövcud dövlətlərdən olmuşdur.

Manna dövləti yalnız Azərbaycanın deyil, eləcə də dünyanın dövlətçilik mədəniyyəti tarixində mühüm yer tutur. Manna bütün regionda baş verən hərbi-siyasi hadisələrdə yaxından iştirak edir, Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan qüvvətli qonşularına - Aşşur və Urartu dövlətlərinə qarşı mübarizə aparırdı. Eramızdan əvvəl VIII əsrin sonu - VII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın hərbi-siyasi tarixində kimmerlər və iskitlər, həmçinin iskitlərlə eyni kökdən olan saklar və massagetlər mühüm rol oynamağa başladılar.

Sonrakı dövrlərdə nə Əhəməni imperiyasının uzun sürən işğal rejimi, nə də Makedoniyalı İsgəndərin yürüşləri Azərbaycanın qədim dövlət idarəçiliyi mədəniyyətini məhv edə bilməyib. Ölkəmizin cənub torpaqlarında Atropatena, şimalında isə Albaniya dövlətləri meydana gəlib. III əsrdə Azərbaycanı Sasani imperiyası, VII əsrdə isə Ərəb xilafəti işğal etdi. İşğalçılar ölkəyə çoxsaylı irandilli və ərəb mənşəli əhali köçürdülər. Gəlmə əhali mühüm hərbi-strateji əhəmiyyətə malik olan məntəqələrdə və ən məhsuldar torpaqlarda yerləşdirildi. Lakin bütün bunlar Azərbaycanın qədim dövlətçilik ənənələrini məhv edə bilmədi və Azərbaycan xalqının təşəkkülü prosesi davam etdi. Uzun tarixi dövr ərzində Azərbaycanın bütöv halda həmin imperiyaların tərkibində olması nəticəsində ölkənin bütün bölgələri arasında daxili əlaqələri və ticarət əlaqələri genişləndi. Azərbaycanın şimal və cənub, şərq və qərb bölgələri arasında etnik-siyasi və mədəni birliyin yaranması yolunda mühüm irəliləyiş baş verdi.

### Orta əsrlər Azərbaycan dövlətləri haqqında

Xilafət dağıldıqdan sonra - IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətləri yarandı. 600 ilə qədər davam edən sasani və ərəb əsarətindən sonra yerli dövlətlərin yaranması, İslam dininin bütün ölkə ərazisində yayılması Azərbaycanın sonrakı inkişafında mühüm rol oynadı. Lakin Ərəb xilafətinin tənəzzülündən sonra yaranmış dövlətlərdən heç biri uzun tarixi dövr ərzində Azərbaycanın bütün ərazisini əhatə edən vahid, davamlı, qüdrətli dövlətə çevrilə bilmədi və davamlı siyasi sabitlik təmin olunmadı. Azərbaycan Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər geniş əraziləri əhatə edən Böyük Səlcuq imperatorluğunun tərkibinə daxil edildi. Böyük Səlcuq imperatorluğunun süqutundan sonra qüvvətlənən Şirvanşahlar və Eldənizlər dövlətləri Azərbaycan xalqının dövlətçilik ənənələrinin davam etdirilməsində və daha da yüksəlişində mühüm rol oynadı. Yaxın və Orta Şərqin ən qüdrətli dövlətinə çevrilən Azərbaycan Eldənizlər dövləti xalqımızın etnik-siyasi tarixində xüsusi çəkiyə malikdir. Azərbaycan intibahı özünün Xaqani, Nizami, Əcəmi zirvəsinə ucaldı.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. XV əsrin sonu - XVI əsrin əvvəllərində görkəmli dövlət xadimi Şah İsmayıl Xətai bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bildi. Dövlət dili azərbaycan dili, paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan - Səfəvi dövləti meydana gəldi. Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəldi. Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səfəvi hökmdarlarının fəaliyyəti, uğurlu daxili və xarici siyasəti nəticəsində Səfəvi dövləti qısa müddətdən sonra Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi. Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan sərkərdəsi Nadir şah (1736-1747) keçmiş Səfəvi imperiyasının sərhədlərini daha da genişləndirdi. Nadir şahın ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğradı.

XVIII əsrin ikinci yarısında Azərbaycan xırda dövlətlərə - xanlıqlara və sultanlıqlara parçalandı. Ölkənin hərbi-siyasi tənəzzül dövrü başlandı. Azərbaycanın qədim dövlətçilik ənənələrini yaşatmağa çalışan ayrı-ayrı xanlar bütün ölkəni yenidən vahid dövlət çərçivəsində birləşdirməyə çalışsalar da, bu, heç bir nəticə vermədi. Azərbaycanı işğal etməyə çalışan yadelli təcavüzkarların əlinə çox əlverişli fürsət düşdü. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan torpaqları iki imperiya arasında bölüşdürüldü: Azərbaycanın şimalı çar Rusiyasına, cənubu isə Qacarların idarə etdiyi İran şahlığına qatıldı.

### XX əsrin əvvəllərində Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik parlament respublikası - Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Azərbaycanda müstəqil, demokratik dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, ilk parlament və hökumət, dövlət aparatı, idarəetmə institutları formalaşdırıldı. Ölkənin sərhədləri müəyyənləşdirildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, ərazi bütövlüyü və milli təhlükəsizliyin təmin edilməsi üçün mühüm işlər görüldü. Dövlət bayrağı, himni və gerbi qəbul edildi, ana dili dövlət dili elan olundu və xalqın, milli dövlətçiliyin sonrakı illərdə hərtərəfli inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən mühüm məsələlərin həlli istiqamətində məqsədyönlü addımlar atıldı.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Şərqdə ilk dəfə və bəzi Avropa ölkələrindən xeyli əvvəl Azərbaycanda qadınlara seçki hüququ verildi. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri olduqca mürəkkəb tarixi şəraitdə - erməni hərbi birləşmələrinin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və özlərinə dövlət qurmaq üçün torpaq iddiaları irəli sürməsi şəraitində, Batumi danışıqları nəticəsində əldə edilmiş kompromis variantа əsasən İrəvanın paytaxt kimi Ermənistana verilməsi oldu. Bu böyük tarixi səhv Azərbaycan xalqının həyatında növbəti faciələrə və ermənilərin davamlı təsir dairəsinin genişləndirilməsinə yol açdı.

1918-ci il dekabrın 7-də açılışı olan Azərbaycan Parlamenti bütün Müsəlman Şərqində o dövrün ən mütərəqqi, demokratik prinsipləri əsasında formalaşdırılmış ilk qanunverici orqan idi. Cümhuriyyət parlamentinin ilyarımlıq fəaliyyəti dövründə qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi.

1920-ci il aprelin 28-də Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildi. Sovet hakimiyyəti dövründə Azərbaycan dövlətçiliyi çətin sınaqlar qarşısında qaldı. 1920-1922-ci illərdə Azərbaycanın artıq beynəlxalq birlik tərəfindən de-fakto tanınmış müstəqilliyi formal olaraq qismən qorunub saxlandı. 1922-ci ilin martında Cənubi Qafqazın üç respublikası (Azərbaycan, Gürcüstan, Ermənistan) vahid dövlət - Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı (ZSSRFİ) çərçivəsində birləşdirildi və bununla da formal müstəqillik tam aradan qaldırıldı. Sovet İttifaqı dövründə Zəngəzur, Göyçə, Naxçıvanın bir hissəsi və digər rayonlar Azərbaycandan alınaraq Ermənistana birləşdirildi. Nəticədə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə 114 min kvadratkilometrə bərabər olan ölkə ərazisi 86,6 min kvadratkilometrə qədər azaldıldı. 1923-cü il iyulun 7-də isə bolşevik liderlərin təşəbbüsü ilə "Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradıldı. Bu qərar keçmiş "Dağlıq Qarabağ"ın Azərbaycan ərazisindən ayrılması istiqamətində atılmış ilk addım oldu.

Azərbaycanda sovet hakimiyyətinə qarşı müqavimət qəddarcasına, sürgünlərlə, repressiyalarla cavablandırıldı. 1937-ci il repressiyaları zamanı sovet hakimiyyəti ilə barışmayan Azərbaycan xalqının görkəmli ziyalılarının əksəriyyəti müxtəlif bəhanələrlə həbs edildi, Sibirə, Qazaxıstan çöllərinə sürgün edildi, bir çoxu güllələndi.

Azərbaycan xalqı II Dünya müharibəsi illərində böyük fədakarlıq göstərdi, Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi. Bakı nefti faşizm üzərində qələbənin əldə olunmasında mühüm rol oynadı.

1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi Azərbaycanın qarşısında duran bir çox taleyüklü suallara aydın cavablar tapılması və onların ardıcıllıqla həll edilməsi baxımından tarixi hadisə oldu. 1970-1980-ci illərin əvvəllərində respublika iqtisadiyyatının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən genişmiqyaslı tədbirlər, o cümlədən çoxsaylı sənaye müəssisələrinin, həmin dövr üçün ən müasir texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması iqtisadi infrastrukturu köklü surətdə dəyişdirdi, onun aqrar respublikadan daha çox sənaye yönümlü respublikaya çevrilməsinə zəmin hazırladı. Bütün məhrumiyyətlərə baxmayaraq, sovet hakimiyyəti illərində, xüsusilə 1969-1982-ci illərdə əldə olunmuş nəhəng potensial XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşmuş dövlətimiz üçün çox gərəkli oldu.

### Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyinə qovuşarkən özünü Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etdi və qədim dövlətçilik ənənələrinə sadiq qalaraq, Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzlərini bərpa etdi. Xalqın iradəsi ilə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb şəraitdə fəaliyyət göstərməyə başladı. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi, hakimiyyət uğrunda daxili çəkişmələr, iqtisadiyyatın çökməsi ölkəni xeyli zəiflətdi.

Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması, məhz Ulu Öndər Heydər Əliyevin fəaliyyəti sayəsində mümkün olub. Ulu Öndər müstəqil Azərbaycan dövlətinin tarixində ən yeni eranın əsasını qoyan, dövlətçiliyi yenidən bərpa edən, onun ideoloji, iqtisadi və siyasi əsaslarını formalaşdıran böyük dövlət xadimidir. Ötən əsrin 90-cı illərində 5 min illik yaşı olan Azərbaycan dövləti parçalanmış vəziyyətdə olduğu vaxt, xalqın güclü idarəetmə qabiliyyətinə malik liderə ehtiyacı vardı. Ulu Öndər hakimiyyətə gələrək, pərakəndə halda olan dövləti inkişaf edən hüquq sisteminə çevirməyə müvəffəq oldu və ölkədə dövlətçilik ənənələrini formalaşdırdı. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasətinin layiqli varisi olaraq, xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir. Çıxışlarının birində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev demişdir: "Müstəqilliyi bərpa etdikdə, biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən, siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu uzun illərdən bəri Ermənistanın işğalına məruz qalmış əraziləri işğaldan azad etməsi, ərazi bütövlüyün təmin etməsi dövlətçilik ənənələrinin bərpa edilərək inkişaf etdirilməsinin bariz nümunəsidir. Hər bir Azərbaycan vətəndaşı Azərbaycan dövlətçiliyinin tarixini bilməli və onunla fəxr etməlidir. Bu gün hər birimiz əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətçilik amallarını, yüksək ideyaları yaşatmaq və gələcək nəslə çatdırmaq, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə onun ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməliyik.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

Məişət

# Hərbi qulluqçuların sosial-məişət şəraitləri yüksək səviyyədədir

*"N" hərbi hissəsində yüksək səviyyədə fəaliyyət göstərən hərbi hissənin xidməti və istirahət otaqlarını, yataqxanalarını və hamamı daim istiliklə təmin edən qazanxananın fəaliyyəti ilə tanış olduq.*



Operator mülki işçi Natiq Qumbaşov gündəlik fəaliyyət barədə danışaraq dedi ki, qazanxana suyu qızdıraraq doymuş buxara və ya suyun qaynama temperaturundan yuxarı temperatura qədər qızdırılmış buxara çevirmək və bununla da otaqları qızdırmaq üçün nəzərdə tutulmuş qurğular sistemidir. "Qazanxanalarda kimyəvi enerji istilik enerjisinə çevrilir və bu zaman həmin enerji vasitəsilə xüsusi qazanlarda olan su qızdırılaraq lazım olan buxar halına gətirilir. Sonra isə həmin buxar müəyyən olunmuş obyektlərə su boruları vasitəsilə ötürülür, borularda hərəkət edən buxar özündən müəyyən miqdar istiliyi ayıraraq yenidən suya çevrilir və qazana qayıdır. Qazanxana isitmə sistemlərinin beyni vəzifəsini daşıyır. Qazan və digər avadanlıqları özündə saxlayır, buna görə də qazanxana hərbi hissənin ehtiyacına cavab verəcək şəkildə olmalıdır". Söhbətimiz əsnasında öyrənirik ki, Natiq 8 ildi məğrur əsgərlərimizin qulluğunda dayanır.



- Bildiyimiz kimi, yaşadığımız ərazi mənfur düşmənlə sərhədə yaxın ərazidə yerləşir. Bu səbəbdən də işğalçılar tərəfindən açılan güllə səslərini çox eşitmişik. Onların necə hiyləgər olduqlarını da çox yaxşı bilirik. Buna baxmayaraq qorxmuruq. Çünki rəşadətli Azərbaycan Ordusu torpaqlarımızın hər qarışını və xalqımızı istənilən hücumlardan qorumağa hazır və qadirdir. Vətən müharibəsində, ordumuzun həyata keçirdiyi bütün döyüş əməliyyatları bunların bariz nümunəsidir. Bunun qarşısında isə Azərbaycan vətəndaşı kimi igid əsgərlərimizə layiqli qulluq etməyi özümüzə mənəvi borc bilirik. Bu işin öhdəsindən gəldiyim üçün isə qürur duyuram.

Operator Müslüm İsmayılov da uzun müddətdir burada çalışır. O, söhbətimiz zamanı dedi ki, bizim vəzifəmiz qazanxanada olan qazan və avadanlıqların saz vəziyyətdə olmalarını daim nəzarətdə saxlamaq, kranların, siyirtmələrin, qaz və hava təzyiqinin, təhlükəsizlik cihazlarının vəziyyətinə xüsusi diqqət yetirməkdir. Həmçinin qrafikə uyğun təzyiq və temperaturu saxlamaq, su, yanacaq və elektrik enerjisinin sərfinə qənaət etmək və hər iki saatdan bir jurnala qazanların istismar vəziyyətini qeyd etməkdir. Bunlarla yanaşı, bütün qazanxananın avadanlıqlarına baxış keçirir, yaranan nasazlıqları aradan qaldırırıq. Azı bir dəfə qoruyucu klapanın necə işləməsini yoxlayırıq. Və suyumuşaldıcı qurğu və süzgəclərin işinə nəzarət edərək, qazanxanada avadanlığın iş rejimində pozuntular barədə qazanxana rəisinə məlumat veririk.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Etimadı doğrultmaq da hünərdir

"N" hərbi hissəsində mayor Ramin Həsənov gizir Sadiq Babazadənin nümunəvi xidmət etdiyini bildirdi. Sadiq Lənkəran rayonunun Veravul kəndində anadan olub. Orta məktəbi 2006-cı ildə bitirib. Məktəb illərində həmyaşıdları kimi torpaqlarımızın işğal olunması onu da hiddətləndirib. Məktəbdə keçirilən xatirə gecələrində, anım mərasimlərində həmişə iştirak edib. Şəhidlər haqqında söhbətləri diqqətlə dinləyib. Orta məktəbi nümunəvi qiymətlərlə bitirsə də, hərbi xidmət etmək istəyib. O da Hərbi And içib. Həmin günü xatırlayan Sadiq Babazadə bildirir ki, insan həyatında ən unudulmaz gün kimi qalan Hərbi andiçmə bizi bir boy da ucaltdı, məğrur və qürurlu etdi. Həmin gün taleyimi ordu həyatı ilə bağlamaq qərarına gəldim. Bu, mənim ömür yolumun, həyatımın yeni dövrü oldu.

Sadiq xidmətə "N" hərbi hissəsində başladı. Məsuliyyətli əsgər kimi tanındı. Bir neçə dəfə döyüş və mənəvi-psixoloji hazırlıqda fərqləndiyinə görə fəxri fərmanlarla təltif olundu. Hərbi xidmətdən tərxis edildikdən sonra xidmətini müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirdi. Ona taqım komandirinin müavini kimi məsuliyyətli vəzifə etibar olundu. İkinci Qarabağ müharibəsi başlayanda Sadiqin xidmət etdiyi hərbi hissə də döyüşlərə cəlb olundu. Murovdağ istiqamətində düşmənə qarşı keçirilən döyüş əməliyyatlarında bu hərbi



hissə də fəal iştirak edirdi. Düşmənin xeyli sayda canlı qüvvəsini, silah-sursatını, hərbi texnikasını məhv ediblər. Qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetiriblər.

Gizir Sadiq Babazadə döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olundu.

Gizir Sadiq Babazadə "N" hərbi hissəsində xidmətini davam etdirir. Motoatıcı taqım komandirinin müavinidir. Taqımda xidmət edən əsgərlərin əsl hərbçi kimi formalaşmasına xüsusi diqqət yetirir. Onlarla şanlı ordumuzun qazandığı tarixi qələbədən, vətənsevərliyindən, xalqla ordunun yenilməz birliyindən söhbətlər aparır, onlarda vətənpərvərlik ruhunun həmişə yüksək olmasına çalışır. Tarixi qələbədən sonra müqavilə şərtlərini tam yerinə yetirməyən Ermənistan ordusunun qalıqları Qarabağda yenə də təxribatlar törətdilər. Buna cavab olaraq ordumuz 19-20 sentyabr 2023-cü ildə əməliyyat tədbirləri keçirdi. Qısa müddət ərzində düşmən ağ bayraq qaldırdı, məğlub oldu, Ermənistan ordusunun mövcudluğuna və separatçı qüvvələrin fəaliyyətinə son qoyuldu. Ölkəmizin suverenliyi, ərazi bütövlüyü tam bərpa edildi. Gizir Sadiq Babazadənin xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də Vətən müharibəsində olduğu kimi döyüş tapşırıqlarını yerinə yetirərək xalqımıza yeni qələbə sevincini yaşatdı. Bu taqımın əsgərləri də xidmətlərini qələbə ovqatı ilə davam etdirirlər. Fuad Əzimli, Murad Hüseynov, Eltun Şıxbalayev, Hüseyn Əşrəfli və başqaları qalib əsgər olmaqdan qürur duyduqlarını iftixarla bildirdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## "Pəncə-Kilid" əməliyyatı bölgəsində 10 PKK terrorçusu zərərsizləşdirilib



Türkiyə Silahlı Qüvvələri tərəfindən "Pəncə-Kilid" əməliyyatı zamanı 10 PKK terrorçusu zərərsizləşdirilib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi açıqlama yayıb.

Məlumatda deyilir ki, Türkiyə Ordusu tərəfindən bölgəyə hava hərəkatı həyata keçirilib.

Xatırladaq ki, İraqın şimalında "Pəncə-Kilid" şərti adı altında aparılan əməliyyat keçən il aprelin 17-də başlayıb.

## İsrail ordusu Qəzza zolağının cənubunda əməliyyatları genişləndirəcək



İsrail silahlı qüvvələri Qəzza zolağının cənubundakı Xan Yunis şəhəri ərazisində əməliyyatları genişləndirəcək.

Bu barədə ölkənin müdafiə naziri Yoav Qallant bildirib.

"Biz Xan Yunis bölgəsində intensiv əməliyyatlar aparırıq və bu əməliyyatları genişləndirəcəyik", - "The Times of Israel" nazirin sözlərindən sitat gətirib.

Nazir qeyd edib ki, əsas məqsədlərdən biri də HƏMAS-ın məğlubiyyəti və israilli girovların azad olunmasıdır.

## Əfqanıstan və Pakistan sərhəd qüvvələri arasında toqquşma baş verib



Əfqanıstanın Kunar əyalətində Taliban administrasiyası ilə Pakistan sərhəd qüvvələri arasında münaqişə baş verib.

Əfqan mətbuatında yer alan xəbərlərə görə, münaqişənin başa çatdığı bildirilsə də, onun miqyası ilə bağlı hələlik rəsmi açıqlama verilməyib.

Qeyd edək ki, hər iki ölkə arasında sərhəd mübahisələrinə görə vaxtaşırı münaqişələr yaranır. Qarşıdurmalardan sonra hər iki ölkənin səlahiyyətli orqanlarının müdaxiləsi ilə gərginlik azaldılır.

## ABŞ-nin İraqdakı hərbi bazası növbəti raket hücumuna məruz qalıb



ABŞ-nin İraqın qərbində yerləşən hərbi bazası növbəti raket hücumuna məruz qalıb.

Bu barədə "Al Hadath" telekanalı məlumat yayıb.

Məlumata görə, aviabazaya 20-dən çox raket atılıb.

Hücuma görə məsuliyyəti Livan "Hizbullah" hərəkatının və İraqın "Əl-Nucəbə" hərəkatının silahlılarının üzərinə götürdüyü bildirilir.

## Çexiya ABŞ-dan 24 "F-35" qırıcısı alacaq



Çexiya martın sonuna kimi ABŞ-la 24 ədəd "F-35" qırıcısının alınmasına dair müqavilə bağlayacaq.

Bu barədə CTK xəbər agentliyi məlumat yayıb.

Qırıcı təyyarələrin alınması ilə bağlı qərar Çexiya hökuməti tərəfindən ötən ilin sentyabrında təsdiqlənib. Məlumata görə, müqavilənin ümumi dəyəri təxminən 6,5 milyard dollar təşkil edəcək. Bu, Çexiya ordusunun tarixində ən böyük maliyyə əməliyyatı olacaq.

Çexiya Hərbi Hava Qüvvələrində "F-35"lər İsveçdən icarəyə götürülmüş "JAS-39 Gripen" qırıcılarını əvəz etməlidir.

**AZƏRTAC-ın materialları əsasında**

*Əsgər dostluğu*

# Bildiklərini öyrədən əsgər xeyirxah əsgərdir

Dostluq münasibətlərin ən əsaslarındandır. Hər bir insan həyatı boyu dost qazanır və dostluq etməyi öyrənir. Lakin deyə bilərik ki, dostluq münasibətləri arasında ən müqəddəsi hərbi xidmətdə qazanılan dostluqdur. Əsgər dostluğu gənc yaşlarından həyatın sonuna qədər davam edir. Hərbi xidmət zamanı xüsusi etimad və qarşılıqlı dəstək əsasında yaranan dostluq qardaşlığa bərabərdir. Burada əsgərlər həm də komandanın bir hissəsi olmağa, bir birilərinə dəstək verməyi öyrənirlər. Necə deyərlər, zəncirdəki hər halqa eyni qədər önəmlidir. Bəlli ki, bu sıx dostluq münasibətləri xidmət başa çatdıqda bitmir, keçici bir hadisə tək vaxtla məhdudlaşmır. Əsgəri dostluğunu hər birimiz həyatımız boyu özümüzlə daşıyır, dəyərini heç zaman itirmirik. "N" hərbi hissəsində də bu cür möhkəm dostluq və qardaşlıq münasibətlərinin şahidi oldum.

Əsgər Kamran Həsənov Salyan rayonundandır, Ziya Cahangirov isə Şirvan rayonundan. Böyüyüb başa çatdıqları yerlər bir-birinə yaxın olsa da, bu iki gənc yalnız hərbi xidmətdə tanış olublar. İlk günlərdən aralarında xoş münasibət yaranıb, bir çox ortaq mövzular tapılıb. Kamranın söylədiyinə görə, bəzən eyni anda eyni sözlər dedikləri ətrafda hər kəsi təəccübləndirərdi. "Əsgər dostluğunun ömrü də gücü tək sonsuzdur", - söhbətə başlayan Kamran dedi. - Sirr deyil ki, hərbi xidmət dövründə əsgərin xarakteri formalaşır, daha mətin, iradəli, güclü olur. Əsl hərbçi kimi formalaşan gənclərin dünyagörüşü inkişaf edir, həyatlarında yeni prinsiplər yaranır. Burada insan yeni dostlarla tanış olur, gələcək həyatında lazım olacaq münasibətlər qazanır. Orduda öyrəndim ki, bizim birliyimiz gücümüzdədir. Artıq deyə bilərəm ki, birgə xidmət etdiyim əsgərlər sadəcə həmkarlarım deyil, həm də silah qardaşlarımdır. Onlar üçün canımdan can verməyə hazıram. Xüsusilə də Ziya ilə aramızda güclü qardaşlıq bağları var. Ondan bir qədər böyüyəm və Ziyanın çağırıldığı gündən bacardığım qədər ona yardım etməyə çalışmışam. Mən gənc əsgər olanda digər əsgərlər də mənə yardım edərdilər. Onlardan öyrəndiyim bir kəlam vardı: "Bildiklərini öyrədən əsgər xeyirxah əsgərdir". Mən də xidmətim dövründə hər zaman çalışmışam ki, intizamlı, güclü və iradəli olduğum qədər, xeyirxah da olum. Qalib Azərbaycan əsgəri adına layiq, özümdən kiçiklərə örnək və nümunə olum.



Əsgər Kamran Həsənovla söhbətimiz olduqca xoş keçdi. Həqiqətən də, ordu sıralarında qazanılan dostluğun əbədi olduğuna inanıram. Hərbi xidmət dövründə qazandığım dostları yada salır, bu münasibətlərin buraxdığı izin son dərəcə pozulmaz olduğunun bir daha anlayıram. Kamran ilə söhbətimizi bitirdikdən sonra Ziya ilə həmsöhbət olmaq qərarına gəldim. Söhbətimiz zamanı Kamranın onun haqqında dedikləri bütün xoş sözlərin əyani şahidi oldum.

"Ordu mühitində etimad və güvən əsas rol oynayır və əsgər dostluğu bu təməl üzərində qurulur", - deyən Ziya Cahangirov söhbətə başladı. "Bu prinsiplərə əsaslanan münasibətlər hər birimizi gücləndirir, aramızda sıx bağ yaradır. Hərbi qulluqçu fiziki və emosional çətinliklərə dözümlü olmalı, bunun öhdəsindən gəlmək üçün birlikdə çalışır, bir-birilər ilə birlik yaradaraq ümumi məqsədlərə nail olur. Bu sınaqlardan keçən dostluq isə zamanın sınağına tab gətirir və hərbi xidmətdən sonra da əsgərlər arasında dostluq davam edir. Kamranın artıq hərbi xidmətini başa vurmağı yaxınlaşır. O mənim qardaşımdır. Burada olduğum müddət o, hər zaman dəstək olmağa, kömək etməyə hazır idi və mən də bu cür dost qazandığım üçün fəxr edirəm. Əminəm ki, xidmətdən sonra da Kamran mənim həyatımın ayrılmaz hissəsi olaraq qalacaq və biz bir-birimizə dəstək olmağa davam edəcəyik, tez-tez görüşəcəyik. O, mənə Salyan rayonunu göstərəcəyinə, mən isə onu Şirvan rayonu ilə tanış edəcəyimə söz vermişik".

Əsgərlərlə söhbətimiz bitdikdən sonra onlardan könül xoşluğu ilə ayrılıram. Artıq hər iki gəncimiz haqqında müsbət fikirlərə sahibəm. Onların simasında əsgər dostluğunun müqəddəs bağlara malik olduğunun bir daha şahidi oldum. Çünki hərbi xidmətdə qazanılan dostluq illər sonra da əsgərlərin yadında qalır, geridə təsvirolunmaz xatirələr və uzunmüddətli əlaqələr qoyur. Beləliklə, bu cür dostluq fərdi təcrübəni zənginləşdirməklə yanaşı, həm də hərbi komandada ümumi güc və birliyə təkan verdiyi aydın görünür.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Odusu"**

*Maraq dünyamız*

# Fizika qanunlarına tabe olmayan "Davasko daşı"



Fizikanın məntiq və qanunlarını pozan, 300 ton ağırlığında olan fenomen "Davasko daşı" qayanın kənarında balanslı (tarazlı) şəkildə dayanıb və küləyin əsməsi ilə yellənir. Bir neçə minilliklərdir ki, daş bu şəkildə dayanır.

"Davasko daşı" Argentinada Buenos-Ayresdən cənub-şərqdə yerləşən Tandil şəhərindədir. Daşın başqa bir adı da "Piedra Movediza"dır. İspan dilindən tərcümədə bu, "hərəkətli daş" deməkdir. İllər öncə alimlər daşın cazibə qüvvəsi altında hərəkət etdiyi fikrini deyirdilər.

Yerli sakinlərin rəvayətinə görə, 1000 il bundan öncə Davasko (Günəşin oğlu) özü ilə birgə onların əcdadlarını bura gətirib. Öz xalqına hər şeyi öyrədəndən və bir müddət yaşadıqdan sonra Davasko onları tərk edib. O, öz atası - Günəşin yanına gedib. Öz xalqına isə söz verir ki, vaxt keçəcək, o yenidən yer üzünə həmişəlik qayıdacaq. Xalq onu unutmasın deyə, Davasko daş saxlayıb, bu daş onun dönüşünə qədər orada dayanacaq, heç bir şey ona zərər verməyəcək.

Lakin bir gün əzəmətli daşın sonu gəlib. 29 fevral 1912-ci ildə Davaskonun daşı sıldırımdan qoparaq aşağıya düşüb. Qırılma səbəbi kimi ən inandırıcı versiya - eroziyanın əsası və yaxınlıqda yerləşən şaxtada iş zamanı partlayışların olması sayılıb. Bu hadisədən şəhər sarsılıb. İnsanlar uzun illər dərin sarsıntıda yaşayıblar. Buna baxmayaraq, onlar ruhdan düşməmək qərarına gəliblər. 95 il keçdikdən sonra 2007-ci il mayın 13-də səhər saatlarında Tandiliya sakinləri öz tarixi əfsanələrini bərpa ediblər. Belə ki, daşın plastik nüsxəsi təpənin uc hissəsində, eyni funksiya ilə həmin yerdə quraşdırılıb.

**"Azərbaycan Ordusu"**

# İdman

## "Qarabağ" klubların yeni dünya reytinqində irəliləyib

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) klubların yeni dünya reytinqini açıqlayıb.

702 komandanın yer aldığı siyahıya Azərbaycanın üç təmsilçisi düşüb.

Ötən ay 84-cü pillədə qərarlaşan "Qarabağ" irəliləyişə nail olub. Ağdam təmsilçisi hesabındakı 145,5 xalla 73-cü yerə yüksəlib. Azərbaycan çempionunun qabaqladığı nəhənglər sırasında "Seltik" (Şotlandiya), "Ayaks" (Niderland), "Əl-Nəsr" (Səudiyyə Ərəbistanı), "Çelsi", "Tottenhem" (hər ikisi İngiltərə) kimi klublar da var.

"Sabah" və "Neftçi" isə, əksinə, geriləyiblər. Murad Musayevin çalışdırdığı "Sabah" 55,5 xalla 391-ci yerdən 436-cı pilləyə düşüb. Hesabında 53,75 xal olan "Neftçi" isə 378-ci pillədən 469-cu yerə enib.

Qeyd edək ki, dünya reytinqinə 359 xalla "Mançester Siti" başçılıq edir. İspaniya təmsilçisi "Real Madrid" (332) ikinci, İtaliya "İnter"i (289) isə üçüncü yeri tutublar.

## Ronaldu və Mourinyo futbolda ən çox nifrət edilən şəxslərin siyahısına düşüb



Nüfuzlu "FourFourTwo" nəşri futbolda ən çox nifrət edilən şəxslərin reytinqini dərc edib.

Siyahıya İngiltərənin "Mançester Siti" komandasının sabiq yarımmüdafiəçisi Coy Barton başçılıq edir. O, həm meydanda, həm də meydandan kənarda çoxsaylı zorakılıq hərəkətlərinə yol verdiyi üçün ilk pilləyə "layiq görülüb".

İkinci yerdə FIFA-nın keçmiş prezidenti Yozef Blatter qərarlaşıb. Funksionerin rəhbərliyi dövründə ali futbol qurumunda ən böyük korrupsiya qalmaqalı yaşanıb. İlk "üçlüy"ü Almaniya millisinin sabiq qapıçısı Harald Şumaxer tamamlayıb.

İlk "onluğ"a Kriştianu Ronaldu, Luis Suares və "Roma"nın keçmiş baş məşqçisi Joze Mourinyo da daxil edilib.

"FourFourTwo" nəşrinə görə futbolda ən çox nifrət edilən 10 şəxs aşağıdakılardır:

1. Coy Barton; 2. Yozef Blatter; 3. Harald Şumaxer; 4. Mişel Platini; 5. El-Haci Diuf; 6. Con Terri; 7. Kriştianu Ronaldu; 8. Luis Suares; 9. Pit Vinkelman; 10. Joze Mourinyo.

## Dünyanın ən yaxşı hücumçuları bəlli olub



"FourFourTwo" nəşri peşəkar karyerasını davam etdirən ən yaxşı on hücumçunun reytinqini açıqlayıb. Siyahının ilk pilləsində İngiltərə millisinin və Almaniyanın "Bavariya" klubunun futbolçusu Harri Keyn qərarlaşıb.

İngiltərənin digər təmsilçisi "Mançester Siti"də çıxış edən norveçli forvard Erlinq Holann ikinci sırada yer alıb. İlk "üçlüy"ü Fransa yığmasının və PSJ-nin hücumçusu Kilian Mbappe tamamlayır.

Dünyanın ən yaxşı 10 hücumçusu:

1. Harri Keyn - "Bavariya" (Almaniya)
2. Erlinq Holann - "Mançester Siti" (İngiltərə)
3. Kilian Mbappe - PSJ (Fransa)
4. Viktor Osimhen - "Napoli" (İtaliya)
5. Lautaro Martines - "Milan" (İtaliya)
6. Son Xın Min - "Tottenhem" (İngiltərə)
7. Aleksander İsak - "Nyukasl" (İngiltərə)
8. Darvin Nunyes - "Liverpul" (İngiltərə)
9. Randal Kolo Muani - PSJ (Fransa)
10. Santyaqo Ximenes - "Feyenoord" (Niderland)

**AZƏRTAC-ın materialları əsasında**

Tibb xidməti mayoru Hacıyev Ömər Müseyib oğluna məxsus MN № 0040166 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Baş redaktorun müavini** mayor Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 19
Nüsxə 4646